

**Fəzail İsmayıl Böyükkişi**

(əvvəli ötən sayımızda)

*(Bu yazını Azərbaycanın ilk on bir Milli Qəhrəmanından biri – Valeh Müslümovun anım gününə və Azərbaycan Dövlət Müstəqilliyinin 30 illiyinə həsr edirəm)*

# Vətən Valehin – Valeh Vətənin valehiydi

***Şikayətin əsassız olduğunu dedilər, qərar lazım olan yerə göndərildi. Mən haqlı çıxdım. Bu hadisədən sonra erməni zabitinə nifrətim daha da artdı. Üzünü görmək, səsini eşitmək istəmirdim. Az keçməmişdi ki, onu millətçiliyinə və əliəyriliyinə görə vəzifəsindən uzaqlaşdırdılar.***

***Valeh əsgəri xidmətini başa vurduqdan sonra Sumqayıta gəldi. Atasının bibisi Gülzadə xanımgilə baş çəkdi. Onu Gülzadə xanım, həyat yoldaşı Abbas kişi, onların övladları və bibisi Solmaz xanım gülərüzlə qarşıladı. O sabahkı gün bazar-dükana gedib, bacılarına, qardaşlarına paltar seçib aldı. Axşam Bakıdan Astaraya gedən qatara mindi. Səhər Lerikə çıxan taksilərdən biriylə evlərinə gəldi. Atası, anası, qardaşları, bacıları Valehin əsgəri xidmətini sağ-salamat başa vurub evlərinə qayıtmasına çox şad oldular. Atası Əlizahid müəllim Valehin adına qurbanlıq saxladığı dananı qurban kəsib payladı. Valeh bir həftə evdə qalandan sonra Sumqayıta qayıtdı.***

Əvvəl iş yerinə gəlib əzirə yazıb trestin 20-ci sahəsində yenidən dülgər kimi işə başladı. Onun iş yoldaşlarının çoxu əvvəlki iş yoldaşları olsalar da amma indi sanki dəyişmişdilər. Əvvəlki xoş münasibətləri soyuq və laqeyd münasibətlər əvəz etmişdi.

Zamanın niyə belə dəyişməsinə Valeh mat qalmışdı. O yenə yataqxanada yer aldı, yenidən qaynar həyata başladı. Axşam məktəbində doqquz, onuncu siniflərində təhsilini davam etdirdi və 1991-ci ilin yazında atestat aldı. O inşaat institutunda ali təhsil almaq istəyirdi. Lakin Qarabağ müharibəsi onun bu arzusuna çatmasına imkan vermədi. Çünki Valeh əzgərlikdən qayıdandan sonra Sumqayıt şəhərindəki ab-hava da əvvəlki ab-hava deyildi. Ermənilər İrəvanda kütləvi mitinqlərə başlamışdılar. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizlənsin", "Etrmənistan ermənilər üçündür" şüarlarını səsləndirirdilər. İrəvandakı yeganə məscidə, azərbaycanlı uşaqları təhsil aldığı orta məktəblərə, C.Cabbarlı adına Dram Teatra od vurulur, İrəvandakı azərbaycanlıların evlərini yandırmağa başlayırdılar. Bundan sonra SSRİ Dövlət Təhlükəsizlik Komitəsi ermənilərlə birgə Sumqayıt hadisələrini törətdilər ki, Azərbaycan xalqının vəhşi obrazını yaradıb dünyaya car çəksinlər ki, türklər vəhşi millətdir. Bütün bunların mahiyyətini hamıdan yaxşı bilən Qorbaçov o vaxt Sumqayıt hadisələrinə belə qiymət verirdi. "Sumqayıt hadisələri bir qrup şəxsin xuliqanlığı nəticəsində baş verib". Bununla da Qorbaçov Sumqayıtda ermənilərin törətdiyi faciəni ermənilərin xeyrinə ört-basdır eləyirdi. O vaxt həbs edilən Lerikin Veri kəndindən olan Əhməd Əhmədovun heç bir günahı olmasa da o məsuliyyətə cəlb edildi. Onun məhkəməsi Moskvada keçirildi. Ona heç bir günahı olmasa da on səkkiz ay işgəncələr verildikdən sonra onu güllələdilər. Amma bu əməliyyatın təşkilatçılarından Ohanyanın adı uzun müddət mətbuatdan gizlin saxlandı. Qırğını törədənlərin ən fəal üzvü iki dəfə məhkum olunan Edurad Qriqoryanasa erməni təşkilatçılarının köməyilə güllələnmə hökmü verilmədi. Ona 12 il cəza kəsildi. Bir müddətdən sonrasa onu azadlığa buraxdılar.

Bütün bu hadisələrin mahiyyətini Valeh çox gözəl başa düşürdü. O çıxış yolunu Azərbaycan xalqının azad olunmasında və Azərbaycanın müstəqil dövlət olmasında görürdü. Ona görə də Valeh Azərbaycan Xalq Cəbhəsinə üzv oldu və onun səsi azadlığımız uğrunda keçirilən mitinqlərdən gəldi. Bir gün bu səs onun işlədiyi tikinti idarəsinin rəisinin də qulağına çatdı. O, Valehi yanına çağırtdırıb dedi: "Eşitmişəm şəhərdə azadlıq, azadlıq" qışqıranlardansan, gəmidə oturub, gəmiçiylə dalaşırsan. Barəndə bir də mənə xəbər gətirsələr yataqxananı tərk edib işini itirəcəksən.

Valeh rəisə belə cavab verdi: "Düz eşitmisən, mitinqlərə gedirəm. Ermənilər bizdən torpaq istəyirlər. Buna susmalıyıqmı? Hədə-qorxuyla məni yolumdan döndərə bilməzsən! Bir neçə gündən sonra Valehi kadrlar şöbəsinə çağırıb ərizəsini alıb işdən çıxartdılar.

Təzyiqlər onu qorxutmadı. O, yenə də haqq səsini ucaltdı. O ərizə yazıb Xüsusi Təyinatlı Milis Dəstəsində (XTMD) xidmət etmək istədiyini bildirdi. Komissiya üzvləri onu qeyd-şərtsiz qəbul etdilər. "Bizə sənin kimi idmançılar lazımdır"- dedilər. Valeh nadir pulemyotçu idi. O bir neçə dəfə könüllü müdafiə dəstəsinə qoşulub Qarabağa getmişdi. Qubadlıda ermənilərin gözətçi məntəqələrinə sərrast atəşlər açmışdı. Erməni silahlı quldurları azğınlığa başlayanda həmişə quldurlarla döyüşməyə gedən OMON-çulardan biri də Valeh olurdu. Bu döyüşlərdə Valeh əlinin gücünü ermənilərə göstərirdi. Ermənilər hər dəfə Valehin əlinin gücünü gördükcə onun adını hallandırır, onun başına əvvəlcə qoyduqları 200 min dolların məbləğini çoxaldırdılar. Valehin döyüşlərdə göstərdiyi şücaətlər bir-birini əvəz edirdi. O qəhrəmanlıq tariximizə yeni-yeni səhifələr yazırdı. Tovuzda Əlibəyli kəndi uğrunda gedən ölüm-dirim mübarizəsini xatırlayan Binamin Valehin necə döyüşçü olması haqqında belə deyirdi: "Döyüş vaxtında Valehi tanımaq olmurdu. Pulemyotu səsləndikcə saqqallılar yerə yıxılırdı, mövqeyini tez-tez dəyişirdi ki, düşmən onu hədəfə ala bilməsin. Qarabağ münaqişəsinin ən qanlı faciəsi Xocalı soyqırımı bütün Azərbaycan xalqı kimi Valehin də hissiyyatına ağır təsir göstərmişdi. Bu faciəni XTMD-sı 1992-ci ilin fevralın 27-də Laçında eşitdilər. Həmin vaxt Valeh XTMD-nın rəhbərliyinə bu məzmunda bir məktub göndərdi: "Bir ildir Qarabağın müdafiəsindəyəm. Şuşada, Tovuzda, Qubadlıda, Tərtərdə, Xocavənddə, Füzulidə olmuşam. İndi də Laçındayam, azərbaycanlıların Xocalı dərdi ürəyimə dağ çəkib. Bizi Xankəndinin alınmasına göndərin. Mənim sözüm həmfikirlərimin sözüdür. Hamımız Vətən yolunda şəhid olmağa hazırıq". Valehin bu məktubu mətbuatda dərc olunmuşdu, radioda və televizorda səslənmişdi. XTMD-sı Valehin dediyi bu sözləri yerinə yetirməyə hazır idi. Lakin naməlum səbəbdən onlara hücum etməyi məsləhət görmədilər. Valehin son döyüşü OMON-çuların Tərtər rayonunun Marquşavan kəndini ermənilərdən almaq uğrunda apardığı döyüş oldu. Bu OMON-çuların 1992-ci ilin aprel ayının 10-da dan yeri söküləndə aldığı hücum əmri oldu. Valeh təpənin üstündə mövqe tutmuşdu. ***Sabir Ağayevin komandir olduğu dəstənin döyüşçüləri BTR-lə hücuma keçmişdilər. Onların arxasınca özünü müdafiə dəstəsinin əsgərləri gəlirdi. Döyüşçülər sürünə-sürünə irəliləyirdilər. BTR erməniləri biçirdi, Valeh snayperlə saqqallı erməniləri kanala aşırırdı. O bu ağır döyüşdə həm düşmənin atəş nöqtələrini susdururdu, həm də düşmən gülləsindən yaralanmış dostlarını təhlükəsiz yerə çıxarırdı. Valeh bu son döyüşdə də yaralı dostlarını xilas etmək üçün var-qüvvəsini əsirgəmirdi. Yaralı İlham Qayıbov düşmən hədəfində qalmışdı. Valeh onu xilas etmək üçün irəli atıldı və düşmən gülləsinə tuş gəlsə də İlhamı düşmən hədəfindən çıxartdı.*** Amma düşmən gülləsi Valehin ürəyini dəlib kürəyindən çıxmışdı. BTR-ın sürücüsü Vüqar maşını kənara çəkib kanala tərəf süründü. Yaralıya çatanda komandir beretkasından yaralının Valeh olduğunu tanıdı. Üstünə atılıb onu qucaqladı, onu arxası üstə çevirdi. O çoxlu qan itirmişdi. Üzünə əli ilə ehmallı vurdu ki, o, ayılsın. Valeh gözlərini açıb "Sabir məni tez götürün, düşmənin əlinə keçməyim" - dedi. Komandir maşına tərəf qışdıqdı: "Vüqar özünü yetir, Valeh gedir. Onlar Valehi maşına çatdırdılar. Artıq Valehin nəfəsi gəlmirdi. Vüqar özünü itirmədən dostunun gözlərini yumdu, dodaqlarını bir-birinə yapışdırdı, başını qucağına alıb ağladı. Dostları Valehin cənazəsini maşına qoyub Bərdəyə gətirdilər. Polis otağında cənazəni stolun üstünə qoyub Bakıya xəbər verdilər. Sabir dostunun ata-baba yurdunda basdırılmasına tərəfdar idi. Telefon zəng çaldı. Dəstəyi şöbənin rəisi qaldırdı, qulaq asıb dəstəyi Sabirə uzatdı. Danışıq otağında aydınca eşidilirdi. Atasının xahişi ilə Lerikdə torpağa tapşırın. Dostlarının adından bağsaqlığı verin. Onun qəhrəmanlığı heç vaxt unudulmayacaq. Qanı yerdə qalmayacaq.

Ertəsi gün aprelin 11-də elə bil hava da Valehə yas saxlayırdı. Sısqa yağış yağırdı. Döyüşçüləri müşayiət edən maşın, qabaqda Valehi doğmalarına gətirən maşın ortada OMON-çular olan maşın arxada Lerikə doğru irəliləyirdi. Bütün leriklilər Vətən uğrunda şəhid olan öz igid oğlunu göz yaşları içində qarşılayırdı və göz yaşları içində son mənzilə yola salırdı. Valeh Lerikin Vətən uğrunda nə birinci, nə də axırıncı şəhidi idi. Amma igidliyinə, qəhrəmanlığına görə birinci şəhidiydi. O, on bir nəfəri ölümün pəncəsindən almışdı. On bir ananın göz yaşlarını aöxmağa qoymamışdı. Ancaq öz anasını gözü yaşlı saxlamışdı. Ana 23 yaşlı şəhid oğlunu bu oxşama ilə son mənzilə yola salırdı:

**Aman amana qaldı,**
**Halım yamana qaldı.**
**Bala səni görməyim,**
**Axır zamana qaldı.**

O gün Valeh hamı kimi yer-göy, zaman da ağlayırdı. Bu ağlayanlar içərisində bir gözəl də Valehi pünhan (gizlin) ağlayırdı. O, da nakam eşqinə belə oxşama deyirdi:

**Valehi anan ağlar,**
**Eşqiylə yanan ağlar.**
**Hamı aşkar ağlasa,**
**Bir gözəl pünhan ağlar.**

Bəli, Valeh ilahi bir eşqin Vətən eşqinin övladı idi. O, 23 illik ömründə bədirli ay kimi bu Vətən eşqilə halələndirmişdi. Onun bu Vətən eşqinə görə Qarabağ Bütöv Azərbaycan demək idi. O, bu vətən eşqində haqlı idi. Mənfur rus çarı I Aleksandşr Qarabağın Gülüstan kəndində bağladığı müqavilə ilə Azərbaycanı iki yerə bölmüşdü. Qarabağ uğrunda müharibə çox çəksə də Azərbaycan xalqı bu müharibədə qalib gələcək və həm Qarabağa, həm də bütöv Azərbaycana sahib olacaq.



### Son söz əvəzi

Valeh də Valehlə birdə ilk on bir milli qəhrəman da Qarabağ uğrunda mübarizə başlayandan Vətən müharibəmizdə şəhid olan bütün şəhidlərimiz də ölməyiblər. Canlarını canımız olan Azərbaycana, onu azad, qüdrətli dövlət olmasına veriblər. Sonuncu 44 günlük möhtəşəm Vətən müharibəmiz bir daha sübut etdi ki, artıq Araz çayımız Muraz çayına çevrilməyində, Xudafərin körpüsü Muraz körpüsünə çevrilməyində, Kəlbəcərimiz Göycəmizə, Zəngəzurumuz İrəvana və Naxçıvana qovuşmağındadır. Bəli, rus şovonistlərinin də, fars şovonistlərinin də canına vəlvələ düşüb ki, daha bu xına ıo xına deyil. Azərbaycan xalqının qeyrəti olan Valehlər, Hümmətlər (Valehin qardaşı) onun qeyrət damarını tərpədib, Azərbaycan ordusu düyanın ən qüdrətli ordusundan birinə və Azərbaycan Dövlətini dünyanın ən qüdrətli dövlətlərindən birinə çeviriblər. Xəyalımda yanan ağ işıqlar artıq reallığa çevrilib. Mənim ata nəslim Böyükkişi xanların nəsli I Şah Abbasın dövründə Ərdəbildən ana nəslim Məsdər ağasa Xınna mahalından 1939-cu ildə Ərdəbilə köç edib Valehin də baba nəsli 1918-ci ildə Ərdəbildən Lerikə köç etmişdi. Valehin sevimli babası Sənanın da müharibədən sonra Ərdəbildə yaşaması haqqındşa leriklilər arasında əfsanələşmiş söz-söhbətlər dolaşdığından Valeh də ömrüün hər anında Ərdəbilə doğru can atıb.

***Valeh Tanrının ən sevib-seçdiyi bəndələrindən idi. O, az danışardı, amma saz danışardı. Çox dərin mütəaliəsi vardı. Ən çox sevdiyi şairlər Sabirlə Şəhriyar idi. Demək olar ki, Valeh bu iki böyük şairimizin şeirlərinin çoxunu əzbər bilirdi. Valehin nurlu könlünə bütün kainat, kahkaşan sığardı. Onun qəlbi kimi boyu-buxunu, hüsnü-camalı da, eşqi, amalı da gözəl idi. O dinli-imanlı bir ailədə dünyaya göz açmışdı. Doğrudan da belə oğulları olan Vətən xoşbəxtdir, möhtəşəmdi. Bunu hamının anlamasına lap az qalıb. Onda güneyli quzeyli Azərbaycan Bütöv Azərbaycan olacaq!***

*Zamanın niyə belə dəyişməsinə Valeh mat qalmışdı. O yenə yataqxanada yer aldı, yenidən qaynar həyata başladı. Axşam məktəbində doqquz, onuncu siniflərində təhsilini davam etdirdi və 1991-ci ilin yazında atestat aldı. O inşaat institutunda ali təhsil almaq istəyirdi. Lakin Qarabağ müharibəsi onun bu arzusuna çatmasına imkan vermədi. Çünki Valeh əzgərlikdən qayıdandan sonra Sumqayıt şəhərindəki ab-hava da əvvəlki ab-hava deyildi. Ermənilər İrəvanda kütləvi mitinqlərə başlamışdılar. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizlənsin", "Etrmənistan ermənilər üçündür" şüarlarını səsləndirirdilər. İrəvandakı yeganə məscidə, azərbaycanlı uşaqları təhsil aldığı orta məktəblərə, C.Cabbarlı adına Dram Teatra od vurulur, İrəvandakı azərbaycanlıların evlərini yandırmağa başlayırdılar. Bundan sonra SSRİ Dövlət Təhlükəsizlik Komitəsi ermənilərlə birgə Sumqayıt hadisələrini törətdilər ki, Azərbaycan xalqının vəhşi obrazını yaradıb dünyaya car çəksinlər ki, türklər vəhşi millətdir*